**Mükafatlandırma siyasətinin prinsipləri**

Mükafatlandırma siyasəti "CPM-İnvest İnvestisiya Şirkəti" ASC-nin korporativ idarəetmə mexanizminin ən mühüm komponentlərindən biri olmaqla aşağıdakı prinsipləri özündə ehtiva edir:

- Şirkətin strateji hədəflərə nail olmasına yönəldilməli;
- Şirkətin uzunmüddətli fəaliyyət nəticələrinə və mənfəətliliyinə əsaslanmalı;
- Şirkətin risk iştahasına adekvat olmalı və izafi risk qəbulu məhdudlaşdırmalı;
- Şirkət tərəfindən üzərinə uzunmüddətli risklərin götürülməsi hesabına qısamüddətli dövrdə gəlir əldə etməsinə təşviq etməməli;
- Maraqlar münaqişəsinə yol verməməlidir.

Şirkətdə mükafatlandırma şirkətin aşağıdakı dəyərlərinə əsasən həyata keçirilir:

- Şəffaflıq – Qaydaların dəqiq olması və qaydalarla bağlı məlumatın bütün işçilərə açıqlanması;
- Effektivlik – Mükafatlandırma üzrə dəyərləndirmələrin müəyyən edilmiş dövriliklə aparılması və sistemin məqsədlərinə nail olmaqda effektli olması;
- Çeviklik – Əmək bazarının tələblərinə və dəyişikliklərinə adekvat qaydaların çevik şəkildə hazırlanaraq tətbiq edilməsi;
- Ədalətlilik – Fəaliyyətin effektiv ölçülməsi məqsədilə obyektiv kriteriyaların müəyyən edilməsi və dəyərləndirmə prosesində ayrıseçkiliyə yol verilməməsi;
- Adekvatlıq – şirkətin maliyyə göstəricilərinə, qanunvericiliyə, qabaqcıl beynəlxalq təcrübəyə və şirkətin strategiyasına adekvat olması.